**AZƏRBAYCAN RESPUBLİKASININ**
**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ**

AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 2B
https://www.ddla.gov.az

Tel: (+994 12) 497-44-05 Faks: (+994 12) 497-44-06
E-poçt : info@ddla.gov.az


"26" Fevral 2024-cü il

№ 3-27-106/2-167/2024

**Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən şirkətlərə**

Məlumatların təqdim edilməsi haqqında

Məlumat üçün bildiririk ki, son zamanlar gəmilərdə apardığımız Bayraq Dövləti Nəzarəti yoxlamaları zamanı tərəfimizdən dəniz üzgüçülüyünün təhlükəsizliyinə, insan həyatının mühafizəsinə və ətraf mühitin qorunmasına zidd olan razılaşdırılmamış konstruktiv dəyişikliklər, layihələndirmə və təmir işlərinin tənzimləmə siyasətini həyata keçirən quruma məlumat verilmədən aparıldığı aşkarlanmışdır.

Gəmi sahibləri və gəmini istismar edən şirkətlər adətən bu kimi halları icra etdikləri layihələrin qısa müddətli olmasını və ya cəlb edildikləri layihə üzrə işlərə vaxtından əvvəl başlamalarını əsas gətirməklə mümkün qədər gizlətməyə çalışırlar.

Həmçinin qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli 1462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Dəniz və Liman Agentliyi"nin Nizamnaməsinin 3.1.35-ci maddəsinə əsasən gəmilərdə həyata keçirilən istənilən növ layihələndirmə, konstruktiv dəyişiklik və təmir işləri Agentlik tərəfindən müvafiq razılıq verildikdən sonra "Dənizdə insan həyatının mühafizəsinə dair" Beynəlxalq Konvensiyanın II-1-ci fəslinin 3-1-ci qaydasının tələbinə əsasən həmin işlər gəminin təsnifat cəmiyyətinin nəzarəti altında yerinə yetirilməlidir.

Eyni zamanda, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası qanununun və "Tanınmış təşkilatlar haqqında" Məcəllənin (RO Code) tələblərinə əsasən, gəmilərdə və ya özühərəkətedən qazma qurğularında layihələndirmə, konstruktiv dəyişiklik, təmir işləri və dəniz nəqliyyatı sahəsində həyata keçirilən digər xidmətlər Dövlət Dəniz və Liman Agentliyi tərəfindən dəniz nəqliyyatı sahəsində beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq yoxlanılmış və fəaliyyətinə razılıq verilmiş şirkətlər tərəfindən həyata keçirilməlidir.

Bununla əlaqədar olaraq bildiririk ki, mütəxəssislərimiz tərəfindən yuxarıda qeyd olunan hallar aşkar edildiyi təqdirdə gəminin səfərə çıxması məhdudlaşdırılmaqla qanunvericiliyə müvafiq tədbirlərin görülməsi təmin ediləcəkdir.

Əlavə olaraq bildiririk ki, rəhbərlik edilən qurum tərəfindən istismar olunan gəmilərdə konstruktiv dəyişikliklər həyata keçirilərkən, nəzərdə tutulan dəyişikliyin həcmindən asılı olaraq layihə cizgilərinin gəminin təsnifat cəmiyyəti tərəfindən təsdiqlənməsi və bütün hallarda layihələrin Agentlik tərəfindən razılaşdırılması tələb olunur.

**İdarə Heyəti sədrinin müavini,**
**İdarə Heyətinin sədri vəzifəsini**
**müvəqqəti icra edən** **Əfqan Cəlilov**